5. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998
6. XX əsr Azərbaycan tarixi. Bakı, 2004
7. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasət). Bakı, 1992
8. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. Bakı, 1996
9. Https://az.vikipediya.org/wiki/

## 44 DAY WAR THAT SHATTERED THE MYTH OF THE INVINCIBILITY OF THE ARMENIAN ARMY

***Aslanova Emma Ali, Behbudova Tarana Geray***

***Summary***

Our Armed Forces destroyed the 30 year old invincibility of the Armenian army in 44 days. The Patriotic war?which began on september 27 under the leadership of Commander Ilham Aliyev ended with a glorious victory.During the 44 day military operations,the Azerbaijani Army achieved a great victory by destroying the armed forces of the occupying Armenia for 30 years/Expressing their support for Azerbaijan in this victory,Turkey and Pakistan our brother's country once again showed to the world that they are present both on the battlefield and at the table.

## 44 ДНЕВНАЯ ВОЙНА РАЗРУШИВШАЯ МИФ О НЕПОБЕДИМОСТИ АРМЯНСКОЙ АРМИИ

***Асланова Емма Эли гызы, Бехбудова Тарана Герай гызы***

***Резюме***

Наши Вооруженные силы за 44 дня разрушили непобедимость 30 летней армянской армии.Таким образом Отечественная война, начавшаяся 27 сентября под руководством Верховного Главнокомандующего Ильхама Алиева завершились славной победой. В рамках 44-ех дневной военной операции азербайджанская армия добилась большой победы, уничтожив вооруженные силы оккупирующей Армении за 30 лет.Выразив свою поддержку Азербайджану в этой победе братские страны Турция и Пакистан еще раз показали миру,что они присутствуют как на поле битвы,так и за столом.

***Rəyçi: dosent Sevinc Bağırova***
***Azərbaycan tarixi kafedrasının 19 mart 2021-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 30 matr 2021-ci il***

**UOT: 94(479.24)**

# DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI ƏDALƏTSİZLİK AKTI KİMİ

***t.ü.f.d., dosent Əliyeva Gülara Əlvan qızı***
***Gəncə Dövlət Universiteti***
***gularaalvan@gmail.com***

**Xülasə:** *Sovet hakimiyyətinin ilk günlərindən erməniləri himayə edəcəyi aydın görünürdü. Sovet hakimiyyətinin qəbul etdiyi ilk dekretlərdən birinin üzərində nəzarəti S.Şaumyana tapşırılması çox şeydən xəbər verirdi. Ondan sonra Sovet rəhbərliyi Qafqaza S.Kirovu göndərir. O, yerli vətənpərvər qüvvələrə qarşı amansız mübarizəyə başlamış, ermənilərin meydan sulaması üçün əlindən gələni etmişdir. Məhz S.Kirov 1921-ci il iyulun 4-də Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının əleyhinə səs vermişdi. Bu cəhdi baş tutmadıqda o, vilayət ermənilərinə muxtariyyət verilməsi istiqamətində çalışmış və*

*təəssüf ki, buna nail ola bilmişdi. 1920-ci ilin iyun ayının axırında Azərbaycana göndərilmiş Orconikidzenin də Dağlıq Qarabağ məsələsinin sonralar Azərbaycan üçün daha faciəli məcraya yönəlməsində az rolu olmamışdır. 1921-ci il iyulun 4-də Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək haqqında qərar qəbul edilir. Ertəsi gün, yəni 1921-ci il iyulun 5-də N.Nərimanovun səyləri nəticəsində Dağlıq Qarabağı Azərbaycan SSR-nə qaytarılır. Nəhayət, 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret qəbul etdi. Tədricən aydınlaşırdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, onu Ermənistana birləşdirmək yolunda bir mərhələ olaraq düşünülmüşdür.*

**Açar sözlər:** yüzillik, Dağlıq Qarabağ, problem, Daşnaksütun, partiya, erməni, müsəlman, dövlət, "Erməni məsələsi", Qafqaz, Zaqafqaziya, vilayət, əhali

**Ключевые слова:** век, Нагорный Карабах, проблема, Дашнакцютун, партия, армянин, мусульманин, государство, «Армянский вопрос», Кавказ, Закавказье, область, население

**Key words:** century, Mountainous Karabakh, problem, Dashnaksutun, party, armenian, muslim, state, "Armenian issue", Caucasus, Transcaucasia, province, population

Ermənilər daşnak hakimiyyəti dövründə əldə edə bilmədiklərinin əksəriyyətini məhz Sovet hakimiyyəti şəraitində həyata keçirməyə müvəffəq ola bildilər. Sovet hakimiyyətinin ilk günlərindən erməniləri himayə edəcəyi aydın görünürdü. Sovet hakimiyyətinin qəbul etdiyi ilk dekretlərdən birinin məhz "Türkiyə Ermənistanı haqqında" [10, 223] olması və həyata keçirilməsi üzərində nəzarəti S.Şaumyana tapşırılması çox şeydən xəbər verirdi.

S.Şaumyandan sonra Sovet rəhbərliyinin Qafqazda ən çox etibar etdiyi şəxslərdən biri S.Kirov idi. Bu şəxsin ermənilərə rəğbətinin həddi-hüdudu yox idi [10, 206-207]. Ermənilər də yaxşı anlayırdılar ki, S.Kirovun Zaqafqaziyada (Güney Qafqazda), konkret olaraq Azərbaycanda fəaliyyəti ancaq onların xeyrinə ola bilərdi.

Tarixdən məlumdur ki, 1915-ci ildə Türkiyənin milliyətcə erməni olan təbəələri müharibə vəziyyətindən sui-istifadə edərək rus ordusunun tərəfinə keçir, ciddi təxribatlar törədirdilər. Türkiyə hökumətinin öz satqın vətəndaşlarını zərərsizləşdirmək üçün həyata keçirdiyi tədbirləri isə ermənilər soyqırım kimi qələmə verərək dünyaya car çəkmişdilər. Həmin dövrdə erməni hay-küyünü müdafiə edərək Rusiyanı ayağa qaldıranlar (M.Qorki, Y.Veselovski, V.Bryusov, N.Marr və b.) arasında S.Kirov xüsusi nəzərə çarpırdı. Əməlli-başlı təhsilə və savada malik olmayan S.Kirov ermənilərin saxta informasiyalarına əsaslanaraq "Terek" qəzetinin 14 fevral 1916-cı il tarixli sayında "Əzabkeş xalq" adlı məqalə də dərc etdirmişdi [10, 206-207].

S.Kirov 1921-ci ilin iyulundan 1926-cı ilin fevralınadək Azərbaycan K/b/P MK-nin birinci katibi olmuşdur. Respublikaya gəldiyi ilk gündən S.Kirov yerli vətənpərvər qüvvələrə qarşı amansız mübarizəyə başlamış, ermənilərin meydan sulaması üçün əlindən gələni etmişdir. Bu şəxsin şərəfsizliyini təsdiq edən ən mühüm amil, onun Dağlıq Qarabağla bağlı mövqeyi olmuşdur. Azərbaycan bolşevik təşkilatına rəhbər təyin olunduğu vaxtdan bir-iki gün sonra 1921-ci il iyulun 4-də RK/b/P MK Qafqaz bürosunun plenumunda Dağlıq Qarabağ məsələsi müzakirə olunarkən, S.Kirov nümayişkaranə şəkildə vilayətin Azərbaycanın tərkibində saxlanılmasının əleyhinə səs vermişdi; o, bununla kifayətlənməyərək, müvafiq rəy sorğusunun bütöv Qarabağda (azərbaycanlıların və ermənilərin iştirakı ilə) keçirilməsinin də əleyhinə səs vermiş, bu tədbirin yalnız Dağlıq Qarabağ ermənilərinin iştirakı ilə reallaşması təklifini müdafiə etmişdi. Bu zaman ona Orconikidze, Myasnikov, Fiqatner kimi türk düşmənləri dayaq olmuşdu.

Dağlıq Qarabağı Azərbaycanın tərkibindən qoparıb Ermənistana birləşdirmək cəhdi baş tutmadıqda S.Kirov həmfikirləri ilə birlikdə vilayət ermənilərinə muxtariyyət verilməsi istiqamətində çalışmış və təəssüf ki, buna nail ola bilmişdi.

1920-ci ilin aprelində Sövet Rusiyası bütün mövcud beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, Azərbaycanı işğal etdi. 1920-ci il aprelin 28-də Azərbaycan Sovet

Sosialist Respublikası elan olundu. Doğrudur, yeni hökumət Dağlıq Qarabağ məsələsinə dərhal münasibət bildirdi və aprelin 30-da Azərbaycan Sovet hökuməti Ermənistana nota verərək, Qarabağı erməni silahlı dəstələrindən təmizləməyi tələb etdi. Lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən, Dağlıq Qarabağda vəziyyətin nizama salınması işində Azərbaycan Sovet hökuməti və onun başçısı N.Nərimanovun müəyyən qüsurları da ortaya çıxdı.

Artıq iyun ayının axırında V.Lenin "Azərbaycanın bütün xarici və daxili siyasətinə rəhbərliyi" rəsmi olaraq Orconikidzeyə həvalə etmişdi. Əksər hallarda Orconikidze öz iradəsini Azərbaycan hökumətinə diktə edir, kobud şəkildə özbaşınalıq edirdi. İnamla demək olar ki, Dağlıq Qarabağ məsələsinin sonralar Azərbaycan üçün daha faciəli məcraya yönəlməsində bu özündən razı gürcünün az rolu olmamışdır. O, 1921-ci il iyulun 4-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında bədnam qərarın lehinə səs vermişdi. N.Nərimanovun da faciəsi onda idi ki, 1918-ci ildə S.Şaumyana inandığı kimi, 20-ci illərin əvvəllərində də S.Orconikidzeyə kor-koranə inanırdı.

İyunun ortalarında Orconikidze Qarabağa gələrək həm azərbaycanlıların, həm də ermənilərin əhval-ruhiyyəsi ilə tanış oldu vəiyunun 19-da G.Çiçerinə (xarici işlər komissarı) teleqramla bildirirdi ki, Qarabağ və Zəngəzur "özlərini Azərbaycan Sovet Respublikasının hissəsi hesab edirlər" [13, 49-50]. Həmin vaxt RSFSR (Rusiya Sovet Federativ Sosialist Respublikası) ilə Ermənistan Respublikası arasında müqavilə bağlamağa hazırlıq gedirdi, bundan istifadə edən Ermənistan Dağlıq Qarabağ məsələsini də gündəmə gətirərək, rusların bu sahədə köməyinə nail olmaq istəyirdi. Orconikidze isə Dağlıq Qarabağ məsələsi ilə bağlı məlum fikrini yenidən təkrar etmişdi: "Mənim fikrim – Qarabağ və Zəngəzur dərhal Azərbaycana birləşdirilməlidir. Mən Azərbaycanı həmin vilayətlərə muxtariyyət verməyə məcbur edərəm" [13, 34]. Beləliklə, Rusiya ilə Ermənistan arasında müqavilə bağlanmasına hazırlıq gedişində Moskva və Yerevanda formalaşdırılan məkrli planın bir hissəsini Orconikidze büruzə verməyə məcbur olurdu;həm də Orconikidze təkidlə bildirirdi ki, bu halda Azərbaycan Ermənistanın xeyrinə Naxçıvandan əl çəkməlidir [13, 34]. Ümumiyyətlə, Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət verilməsi fikrinin müəlliflərindən birinin məhz Orconikidze olması şübhəsizdir. Bir məqamı da qeyd etmək yerinə düşər ki, Dağlıq Qarabağ məsələsinin həllinə münasibətdə Ermənistanın kommunist rəhbərliyinin (Ermənistanda Sovet hakimiyyəti 1920-ci ilin noyabr-dekabr aylarında qələbə çalmışdır) mövqeyi sabiq daşnak rəhbərliyinin mövqeyindən daha sərt və daha əsassız idi.

Uzun sürən müzakirələrdən və fikir ayrılıqlarından sonra, nəhayət, Dağlıq Qarabağ məsələsinin qəti həlli məqamı yetişir. 1921-ci il iyulun 4-də Rusiya K/b/P MK Qafqaz Bürosunun iclasında İ.Stalinin iştirakı ilə "Qarabağ məsələsi" müzakirə edilir. Protokoldan məlum olur ki, dörd məsələ səsə qoyulmuşdur:

a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq.

b) Bütün erməni və müsəlman əhalisinin iştirakı ilə bütöv Qarabağda rəy sorğusu keçirmək.

v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək.

q) Yalnız Dağlıq Qarabağda, yəni ermənilər içərisində rəy sorğusu keçirmək" [13, 91].

Qarabağın (bütövlükdə) Azərbaycanın hüdudlarında saxlanılması lehinə Nərimanov, Maxaradze, Nazaretyan səs verir, əleyhinə Orconikidze, Kirov, Myasnikov və Fiqatner səs verir [13, 91]. Göründüyü kimi, Orconikidze özünün əvvəlki mövqeyinə qarşı səs verərək, prinsipsizlik nümayiş etdirir. Beləliklə, Orconikidze, Myasnikov, Fiqatner və Kirovun (əzəli Azərbaycan torpağının taleyinə bu şəkildə yanaşan bir şəxsin uzun müddət respublikaya rəhbərlik etməsi, ölümündən sonra adının onlarla şəhər və kəndə, ali, orta və orta ixtisas məktəblərinə, küçə və prospektlərə verilməsi, hətta Bakıda heykəlinin ucaldılması acı təəssüf doğurur) səsi ilə Qafqaz bürosu aşağdakı şəkildə qərar qəbul edir: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda, ermənilər

içərisində keçirilsin" [13, 91]. Məlum protokoldan o da aydın olur ki, iclasın sonunda Nərimanov bəyanat verərək bildirir ki, "Qarabağ məsələsinin Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq onu RKP MK-nın qəti həllinə verməyi zəruri sayıram" [12, 91]. Nərimanovun təkidi ilə iclas aşağıdakı şəkildə əlavə qərar da çıxarır; "Qarabağ haqqında məsələ ciddi fikir ayrılığı doğurduğuna görə RKP MK Qafqaz bürosu onu RKP MK-nın qəti həllinə verməyi lazım bilir" [13, 91].

Məsələnin RKP MK ilə hansı səviyyədə razılaşdırılması haqqında tarixi ədəbiyyatda məlumat yoxdur.Ertəsi gün, yəni 1921-ci il iyulun 5-də RK/b/P MK Qafqaz bürosu Dağlıq Qarabağ məsələsini təkrar müzakirəyə çıxarmış və aşağıdakı şəkildə qərar qəbul etmişdir: "Yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələrini, yuxarı Qarabağın Azərbaycanla daimi əlaqələrini və müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini nəzərə alaraq, Şuşa şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağa geniş muxtariyyət verilsin və o, Azərbaycan SSR hüdudlarında saxlanılsın" [13, 92]. Erməni müəlliflər həmin qərarın güya səsə qoyulmadan qəbul edilməsi haqqında sonralar əsassız hay-küy qoparmışdılar. Lakin iclasın protokolunda tam aydın şəkildə qeyd olunmuşdur ki, qərar dörd nəfərin lehinə olması, üç nəfərin bitərəf qalması şəraitində səs çoxluğu ilə qəbul edilmişdir [13, 92]. 1921-ci il 5 iyul tarixli qərar Ermənistan hökumətinin Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana birləşdirmək cəhdlərini qətiyyətlə rədd etdi. Erməni müəlliflərini narahat edən əsas cəhət də ondan ibarətdir ki, əsasən ermənilərdən və ermənipərəst şəxslərdən ibarət olan bir qurum nisbətən ədalətli bir qərar qəbul etmişdir. Görünür, Sovet hakimiyyətinin ilk çağlarında ideoloji prinsiplərə sədaqət hissi bir qədər yüksək olmuşdur. Ermənilər bu ədalətli qərarın qəbul edilməsinə mane ola bilməsələr də, sonradan mərkəzi şəhər kimi Şuşanın Stepanakert (Xankəndi) ilə əvəz olunmasına nail oldular.

Bəzi erməni müəlliflərinin fikrincə, "Qafqaz bürosu Stalinin təkidi ilə öz qərarına təzədən baxmışdır". Bu, cəfəngiyyatdan başqa bir şey deyil. Ümumiyyətlə, RK/b/P MK-nın Qafqaz bürosunun iyulun 4-ü və 5-indəki iclaslarında Stalinin çıxış edib-etməməsi, nədən danışıb-danışmaması, iki müxtəlif qərarın qəbul olunmasında hansı rolu oynaması haqqında indiyədək heç bir məlumat aşkar edilməmişdir.

Əslində isə, həmin məsələyə bir gün sonra yenidən baxılması məhz N.Nərimanovun səyləri nəticəsində mümkün oldu. Hələ RK/b/P MK Qafqaz bürosunun iclası ərəfəsində N.Nərimanov birmənalı şəkildə bəyan etmişdi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılarsa, Azərbaycan hökuməti istefa verəcək. Məhz N.Nərimanovun təkidi ilə iyulun 4-də Dağlıq Qarabağ məsələsini mərkəzin "qəti həllinə vermək" qərara alınmışdı. Böyük iradə və cəsarət tələb edən həmin addım N.Nərimanovun bu məsələdə son dərəcə prinsipial mövqe tutmasından xəbər verir. Bu fakt N.Nərimanovun Azərbaycanın milli mənafeyini şəxsi karyerasından, hökumət basçılığından üstün tutduğunu da sübut etməkdədir. Məhz bunların nəticəsi idi ki, erməni daşnak-bolşevikləri, tarixçiləri N.Nərimanovu Sovet dövrü üçün həqarətli sayılan "millətçi" adı ilə gözdən salmağa çalışırdılar. Azərbaycanın Mirzə Davud Hüseynov, Əliheydər Qarayev, Ruhulla Axundov tipli "alovlu bolşevikləri" və bəzi üzdəniraq "alimləri" də bu mənhus işdə ermənilərə can-başla kömək edirdilər.

İllər sonra qətiyyətlə demək olar ki, "Dağlıq Qarabağı Azərbaycanın hüdudları daxilində saxlamaq" haqqında qərar qəbul olunması N.Nərimanovun Azərbaycan xalqı qarşısında misilsiz xidmətidir. Qərarın məhz bu variantda - "Dağlıq Qarabağ Azərbaycanın hüdudları daxilində saxlanıl-sın"- yazılması erməni müəllifləri bu gün də havalandırır. Zira erməni müəlliflər məlum qərarı "Dağlıq Qarabağın mexaniki surətdə Ermənistanın tərkibindən çıxarılıb Azərbaycanın tərkibinə daxil edilməsi" kimi təqdim edirlər. Əsl tarixi həqiqət isə bundan ibarətdir ki, 5 iyul tarixli qərarla Ermənistan hökumətinin Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb özünə birləşdirmək cəhdi rədd edilmiş, Dağlıq Qarabağın Azərbaycan ərazisi olması bir daha təsdiqlənmiş, Dağlıq Qarabağı Azərbaycanın tərkibində

saxlamaq və ona Azərbaycan hüdudları daxilində muxtar vilayyət hüququ vermək məsələsi həll edilmişdir.

Əslində, bir gün əvvəl, yəni iyulun 4-də qəbul edilmiş qərarın formuləsi də ermənilərin tam xeyrinə deyildi; "Dağlıq Qarabağ Ermənistanın tərkibinə daxil edilsin" şəklində ifadə olunmuş 4 iyul tarixli qərar onu göstərirdi ki, bu qərarın lehinə səs verənlər belə, Dağlıq Qarabağın Ermənistan torpağı olmadığını dana bilməyib və məhz buna görə də "daxil edilsin" şəklində qərar verməyə məcbur olublar. Həmin dövrdə, indi olduğu kimi, ermənilərin mövqeyini təsdiq edəcək heç bir dəlil-sübut yox idi.

1920-ci il iyulun 5-də qəbul edilmiş qərarı nisbətən ədalətli qərar adlandırmaq olar. Zira Sovet hakimiyyətinin müxtəlif strukturlarında ermənilər və ermənipərəst qüvvələr kifayət qədər çox idi və onlar Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi üçün əllərindən gələni edirdilər. Lakin bütövlükdə götürdükdə Azərbaycan SSR ərazisində ermənilərə belə geniş muxtariyyət verilməsi çox ədalətsiz akt idi. Əvvəla, ona görə ki, ermənilər artıq millətlərin öz müqəddəratını təyin etməsi hüququndan bəhrələnərək milli dövlətlərini Ermənistan SSR-i yaratmışdılar və onlara ikinci dövlətin bünövrəsinin qoymaq üçün şərait yaradılması kobud səhv idi. İkincisi, ermənilərin bu torpağa gəlmə olması danılmaz faktdır və onların burada heç vaxt dövlətçiliyi olmamışdır. Üçüncüsü, Azərbaycan və o cümlədən Qarabağ əhalisinin cüzi hissəsini təşkil edən ermənilərə geniş muxtariyyət verildiyi halda, Ermənistan SSR əhalisinin yarıdan çoxunu təşkil edən azərbaycanlılara bu hüquq verilmədi.

Hazırlıq işləri başa çatandan sonra, 1923-cü il iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1921-ci il 1 iyul tarixli məlum qərara əsaslanaraq, "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret qəbul etdi [13, 152-153].

Erməni xadimlərin o vaxtdan etibarən tez-tez səsləndirdikləri ağ yalanlardan biri də bundan ibarətdir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildə "Stalinin iradəsi əsasında" Azərbaycan SSR-in tərkibində saxlanmışdır. Lakin bu fikir əsassızdır və adi məntiqdən məhrumdur. Məsələ burasındadır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili və onun Azərbaycan SSR-in tərkibində saxlanması məsələsi prinsipcə 1921-ci ilin 5 iyulunda həll edilmişdi. Zira Sovet hakimiyyəti illərində bütün mühüm qərarlar Kommunist partiyasının yüksək instansiyaları tərəfindən qəbul edilir, icra hakimiyyəti orqanları isə sonradan bunu təsdiq etməli olurdu. Deməli, DQMV haqqında qərarın əsası 1921-ci ilin 5 iyulunda qoyulmuşdur və həmin vaxt İ.Stalin hələ baş katib olmadığından, məlum qərarın qəbuluna da həlledici təsir göstərə bilməzdi.

Bəziləri də belə güman edirdi ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə "Qarabağ məsələsi" müəyyən dərəcədə həll olunmuşdur. O dövrdə keçirilmiş yığıncaqların birinin qətnaməsində deyilirdi: "Qarabağın muxtariyyətini erməni və müsəlman kəndlilərin dostluğu hesab edirik" [7, 87]. Məlum qərarla razılaşmaq məcburiyyətində qalan S.Kirov isə 1924-cü ildə AK/b/P-nin VI qurultayında deyirdi: "Bu məsələni nəhayət, həll etdik, sübhəsiz, tamamilə düzgün iş gördük. Şübhə yoxdur ki, bu məsələni biz əsasən yenidən həll edəsi olmayacağıq" [7, 88]. Bu cür düşünənlərin yanıldığı çox tezliklə aşkarlandı. Süni olaraq yaradılmış "Qarabağ məsələsi" (o vaxt problem məhz bu cür adlandırılırdı) ermənilərin xeyrinə həll olunsa da, Ermənistan SSR rəhbərliyi və Qarabağın dağlıq hissəsində yuva salmış separatçılar sakitləşmirdilər.Tədricən aydınlaşırdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, onu Ermənistana birləşdirmək yolunda bir mərhələ olaraq düşünülmüşdür.

***Ədəbiyyat***

1.Azərbaycan tarixi. II cild. Z.Bünyadovun və Y.Yusifovun redaktəsi ilə. Bakı, 2007. 526 səh.
2.Azərbaycan tarixi. VII cilddə, VII cild. Bakı, 2008. 456 səh.
3.Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990
4.AKAK, том 2, док. 1426, 591-592
5.ARDTA, f. 456, siy. 2, iş. 6, v. 125-126
6.ARDTA, f. 826, siy. 1, iş. 2, v. 56

7.Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку, 1989
8.Баграмян И.Х.Воспоминания. Ереван, 1979
9.Qanun jurnalı. 13-14(53-54). 1998-ci il
10.Киракосян Ч.С. Младотурки перед судом истории. Ереван, 1986
11.Əzizov T.Azərbaycan XX əsrin əvvəllərində. Bakı, 1997. 456 səh.
12.Малевиль Жорж де Армянская трагедия 1915-го года. Баку, 1990
13.Об организации в Азербайджанской ССР Нагорно-Карабахской Автономной Области. 1918-1925. Документы и материалы. Баку, 1989
14.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990
15.События вокруг НКАО в кривом зеркале фальсификаторов. Сборник материалов. Баку, 1989

## СОЗДАНИЕ НАГОРНО КАРАБАХСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ КАК АКТ НЕСПРАВЕДЛИВОСТИ

***Доцент Алиева Гюлара Алван кызы***

***Резюме***

С первых дней Советской власти было ясно видно, что она будет опекать армян. О многом говорил и тот факт, что контроль над одним из первых, принятых ею декретов, она поручила С.Шаумяну. После него Советское руководство направляет в Кавказ С.Кирова. Он начал безжалостную борьбу с местными патриотическими силами, сделал все возможное, чтобы армяне приобрели широкие полномочия. Именно С.Киров 4 июля 1921-го года проголосовал против сохранения Нагорного Карабаха в составе Азербайджана. Когда эта его попытка провалилась, он начал активно добиваться предоставления автономии армянам области, и к сжалению, добился этого. В направлении в трагическое русло Нагорно-Карабахского вопроса сыграл немаловажную роль, направленный в Азербайджан в конце июня 1920-го года Ордженикидзе. 4 июля 1921-го года было принято решение о присоединении нагорной части Карабаха к Армении. На следующий день, т.е. 5 июля 1921-го года благодаря усилиям Н.Нариманова, Нагорный Карабах был возвращен в состав Азербайжанской ССР. Налонец, 7 июля 1923-го года вступил в силу декрет «О создании Нагорно-Карабахской Автономной Области». С течением времени, становилось совершенно ясно, что создание Нагорно-Карабахской Автономной Области было продуманным этапом, на пути ее присоединения к Армении.

## ESTABLISHMENT OF THE NAGORNO-KARABAKH AUTONOMOUS REPUBLIC AS AN ACT OF INJUSTICE

***Aliyeva Gulara Alvan***

***Summary***

From the very first days of the Soviet rule it transpired that it would be patronising armenians. For instance, the control over implementation of one of the very first decrees was given to S.Shaumyan. Following this the Soviet leadership sent S.Kirov to the Caucasus. He initiated ruthless actions against the local patriotic powers and made everything possible to ensure that armenians have extensive authority. To add to this, it was S.Kirov who voted against Mountainous Karabakh to remain as a part of Azerbaijan on 4 July 1921. When this attempt failed, he started promoting the idea of issuing autonomy to the armenians of the region and it is with regret that he was successful in doing this. The issue of Mountainous Karabakh became even more tragic with the arrival of Ordjenikidzeto Azerbaijan in the end of June 1920. On 4 July 1921 it was decided to unify Mountainous Karabakh with Armenia. Thanks to the efforts of N.Narimanov Mountainous Karabakh remained a part of Azerbaijan with the decree issued as of 5 July 1921. Eventually, a decree on “Establishment of

Mountainous Karabakh Autonomous Republic" was issued on 7 July 1923. As the time was passing by, it was evident that the establishment of the Mountainous Karabakh Autonomous.

***Rəyçi: dos. U.Həsənov, dos. E.Aslanova***
***Azərbaycan tarixi kafedrasının 11 fevral 2021-ci il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olma tarixi 14 fevral 2021-ci il***

**UOT:94(479.24).**

# NIZAMİ GƏNCƏVİ 880: GƏNCƏ ŞƏHƏRİNİN İNTİBAH DÖVRÜNÜN TARİXİ-ETNOQRAFİK TƏDQİQİ

***Həsənov Elnur Lətif oğlu***
***Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi***
***lnurh273@gmail.com***

**Xülasə:***Tədqiqat işi 2021-ci il ölkəmizdə – "Nizami Gəncəvi ili"nə həsr edilir və bu dahi mütəfəkkirin yaşayıb-yaratdığı dövrdə sosial və mədəni inkişafın səciyyəvi xüsusiyyətləri tarixi məxəzlər, yazılı elmi mənbələr, arxiv sənədləri əsasında tədqiq olunur. Şeyx Nizami ilə yanaşı, onun müasirləri hesab edilən Məhsəti xanım Gəncəvi, Qivami Mütərrizi, Əbül-üla Gəncəvi, Rəziyyə xanım Gəncəvi, Ömər Gənceyi, Siti xanım Gəncəvi kimi görkəmli elm və ədəbiyyat xadimlərinin, tarixi şəxsiyyətlərin yetişdiyi mühitdə tədris, təlim və elmi tədqiqatların səviyyəsi araşdırılır. Elmi əsərdə İntibah dövründə Gəncə şəhərində istər ictimai-humanitar, istərsə də təbiət elmlərinin tədris edilməsi, tədqiq edilən mərhələdə şəhərdə fəaliyyət göstərmiş mədrəsələrdə çalışmış, zəngin kitabxanalardan faydalanmış dövrün görkəmli elm xadimlərinin, alimlərin, pedaqoqların xidmətləri də öyrənilir. Mövcud elmi mənbələr, tarixi sənədlər, yazılı məxəzlər əsasında elmi məqalədə tədqiq edilən dövrdə yaşayıb-yaratmış görkəmli elm və mədəniyyət xadimlərinin şəxsiyyət kimi formalaşmasında milli dövlətçilik ənənələrimizin təşəkkülü və inkişafında müstəsna xidmətləri olan Azərbaycan Atabəylər dövlətinin xidmətləri, himayəçilik fəaliyyəti araşdırılır.*

***"İnsana arxadır onun kamalı,***
***Ağıldır hər kəsin dövləti, malı".***
***Şeyx Nizami Gəncəvi***

**Açar sözlər:** Azərbaycan, şeyx Nizami Gəncəvi, mədəniyyət, Gəncə, elm, təhsil, İntibah dövrü.

**Ключевые слова:** Азербайджан, шейх Низами Гянджеви, культура, Гянджа, наука, образование, Ренессанс.

**Key words:** Azerbaijan, sheikh Nizami Ganjavi, culture, Ganja, science, education, Renaissance period.

***Giriş***

Qədim və şərəfli dövlətçilik tarixinə, çoxəsrlik milli-mənəvi dəyərlərə malik olan Azərbaycan İntibah dövründə vahid İslam dünyasının mühüm tərkib hissəsi olmuşdur. 1141-1209-cu illərdə mühüm elm və mədəniyyət mərkəzi olan Gəncə şəhərində yaşayıb-yaratmış şeyx Nizami Gəncəvi kimi əslən Azərbaycan türkü olan ziyalılar da öz yaradıcılıqlarında İslam Şərqinin ümumi dəyərlərini səciyyələndirmişlər. Onların əsərlərində Qurani-Kərim fəlsəfəsi, Şərqin qədim panteist fəlsəfi dəyərləri, ənənəvi mifoloji təsəvvürlər müşahidə olunub. Milli mənsubiyyətindən asılı olmayaraq, XI-XII əsrlərdə İslam Şərqində yaşayan əksər ədiblər əsərlərini ümumi ədəbi dil sayılan fars dilinin dəri ləhcəsində yaradıblar. Məhz buna görə də həmin sənətkarların hansı etnosa mənsub olmasını müəyyən etmək o dövrün ədəbiyyatşünaslıq elmi üçün o qədər də əhəmiyyət kəsb edən məsələ olmamışdır. Peşəkar ədəbiyyatşünaslıq şairlər və onların yaradıcılığına bugünkü tələblərlə yanaşmadığından, nə